# MƏHSUL

Qəzet 1931-ci ildən nəşr olunur

**Biləsuvar Rayonunun ictimai-siyasi qəzeti**

№ 02-03 (8256) 28 fevral 2025-ci il


# SADİQLİK, XEYİRXAHLIQ və NƏCİBLİK NÜMUNƏSİ

**Azərbaycanın inkişafı, sosial məsələlərin həllinə olan həssas yanaşma, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət birinci xanım, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın həyat fəlsəfəsini tərənnüm edir. Prezident İlham Əliyevin ömür-gün yoldaşı və ən yaxın silahdaşı olmaqla yanaşı, Mehriban xanım Əliyeva Azərbaycanın tərəqqisi naminə hər zaman mühüm töhfələr verir.**



Bu mənada Mehriban xanımın mədəniyyətimizin tanıdılması istiqamətindəki fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ona milyonların sevgisini qazandırıb. Məhz bunun bariz nümunəsidir ki, Mehriban xanım Əliyeva Azərbaycan humanizminin simvolu adlandırılır. Hər zaman həssas təbəqədən olan insanlara, şəhid ailələrinə, qazilərə, valideyn himayəsindən məhrum olmuş uşaqlara böyük sevgi ilə yanaşan Mehriban xanım Əliyevanın Vətən müharibəsi zamanı ordumuza verdiyi mənəvi dəstək, milli həmrəyliyə xidmət edən çağırışları daim minnətdarlıqla qeyd olunur. O, xalqımızın sosial rifahına hesablanan bir çox layihənin müəllifi kimi birinci xanım adını şərəflə daşıyır, dünyada müasir Azərbaycan qadınının qürur doğuran obrazını formalaşdırır.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi müasir Azərbaycan tarixində mühüm hadisə idi. Mehriban xanımın bu yüksək vəzifəyə təyin edilməsi dövlətçiliyimizin daha da möhkəmləndirilməsi naminə onun zəngin və yüksək təşkilatçılıq qabiliyyətinə verilən qiymətin nəticəsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva ötən müddət ərzində bu yüksək və məhsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkə əhalisinin bərabər, əlçatan və keyfiyyətli təhsillə təmin olunması istiqamətində reallaşan layihələr təhsildə demokratik prinsipin yaşadılmasını təmin edir.

Azərbaycanın Birinci vitse-prezidenti ölkə əhalisinin sağlamlığının qorunması naminə daim müxtəlif təşəbbüslərlə çıxış edir. Onun fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin qazilərin problemlərinin həlli xüsusi yer tutur. Məhz yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni o, qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbiçilərin ailələrini və qazilərimizi hər zaman diqqət mərkəzində saxlamışdır. Bu bir reallıqdır ki, ordumuzu qələbəyə ruhlandıran müraciət və çağırışlar müharibədən sonrakı dövrdə də Mehriban xanımın fəaliyyətində başqa rakurslarda özünü göstərə bilib. Dövlət başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Şuşada möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili bu xüsusda qeyd olunmalıdır. Ölkəmizdə "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar Mehriban Əliyevanın fəaliyyətində mühüm yer tutur. Həmçinin əhalinin sağlamlığı,"Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", Tibb müəssisələrinin yenidən qurulması və inşası kimi layihələr, bir çox xeyriyyə aksiyası da vurğulanması vacib olan addımlar sırasındadır. Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reablitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reablitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq xidmətə açılıb.

Ardı 2-ci səhifədə →

## BU SAYIMIZDA




**2 FEVRAL- GƏNCLƏR GÜNÜ QEYD EDİLİB** Səh. 3



**GÜNƏŞ ELEKTRİK STANSİYASININ TİKİNTİSİNƏ HAZIRLIQLA BAĞLI NÖVBƏTİ GÖRÜŞ** Səh. 3



**MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN ANADAN OLMASININ 37-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ HƏSR OLUNAN ƏDƏBİ-BƏDİİ GECƏ KEÇİRİLİB** Səh. 4




**"NƏBİ XƏZRİ 100" ADLI ƏDƏBİ-BƏDİİ TƏDBİR** Səh. 4



**XOCALI SOYQIRIMINA HƏSR OLUNMUŞ "YARIM QALMIŞ ARZULAR" ADLI TAMAŞA NÜMAYİŞ OLUNUB** Səh. 5



**AĞACƏKMƏ AKSIYASI** Səh.6

# SADİQLİK, XEYİRXAHLIQ və NƏCİBLİK NÜMUNƏSİ



Əvvəli 1-ci səhifədə

Bununla yanaşı, Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində mühüm işlər görülüb. Bu xüsusda Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günləri keçirilib, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələri ucaldılıb. Azərbaycanın ev sahibliyi etdiyi "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsi, "Formula-1", Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığının bariz nümunəsidir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti ölkənin "Yumşaq güc" siyasətinin təcəssümüdür. Beynəlxalq münasibətlər sistemində Azərbaycanın dostu olan ölkələrin sayının artmasında Birinci vitse-prezidentin misilsiz xidmətləri var. Mehriban xanım Əliyevanın xeyriyyəçilik tədbirləri bir çox ölkəni əhatə edir. Prezidenti olduğu Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəniyyət diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və təbliğidir. Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələri məhz Mehriban xanımın təşəbbüsü ilə icra edib. Mehriban xanım Əliyevanın qlobal təşəbbüsləri sayəsində mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq brendinə çevrilib. Bilavasitə Azərbaycanın Birinci vitse-prezidentinin təşkilatçılığı ilə ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində mədəniyyətlərarası dialoq ünvanlarından biri sayılır.

2004-cü ildən Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu Ümummilli Lider Heydər Əliyevin ideyalarının təbliğində , dahi şəxsiyyətin dövlətçilik irsinin tanıdılmasında əvəzsiz xidmətlər göstərir. Sözsüz ki, Azərbaycan xalqının xeyriyyəçilik ənənələrinin bilavasitə Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilməsi bu gün minnətdarlıqla vurğulanan amillər sırasındadır. Beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitin formalaşması, tarixi mədəni irsin qorunması kimi vacib məsələlər də hər zaman Mehriban Əliyevanın diqqətində olan məqamlardandır. Məhz onun fəaliyyətinin nəticəsi olaraq İçərişəhər, Şirvanşahlar sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu mədəni landşaftı", Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına salınıb. Eyni zamanda muğam və aşıq sənəti , "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya daxil edilib. Bütün bunların məntiqi davamı kimi Azərbaycan 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi edib.

Azərbaycan cəmiyyəti istər Heydər Əliyev Fondunun prezidenti, istərsə də ölkəmizin yüksək səviyyədə ev sahibliyi etdiyi müxtəlif beynəlxalq tədbirlərin təşkilat komitələrinin rəhbəri kimi fəaliyyətində Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığının, məqsədyönlülüyünün dəfələrlə şahidi olub. Azərbaycanın Birinci vitse-prezidenti siyasi karyerası və ictimai fəaliyyəti dövründə başladığı bütün işlərin öhdəsindən böyük məharətlə gəlir.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək səviyyədə qiymətə layiq görülüb. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, eləcədə "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni,Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın" Xidmətlərə görə"Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, "Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalları və bir sıra yüksək təltiflər onun fəaliyyətinə, şəxsiyyətinə verilən qiymətin göstəricisidir.

Siyasətində ümumbəşəri dəyərləri yaşadan, xeyirxahlıq, mərhəmət və insanpərvərlik nümunəsi olan Mehriban xanım Əliyevaya ən böyük mükafatı isə xalqı tərəfindən verilib. Bu mükafat Azərbaycan xalqının sevgisidir.

# 2 FEVRAL- GƏNCLƏR GÜNÜ QEYD EDİLİB



**Gənclik təkcə yaşla limitli olmayan istək, motivasiya, elastik olma, yaratma, təcrübə etmə, inkişafla, əzmlə bağlı olan hər bir cəmiyyətin böyük hissəsini təşkil edən kateqoriyasıdır. Hər bir gənc nəsil öz dövrünün gətirdiyi imkanlar ilə yeni reallıq yaradır və özündən sonrakı nəsillərə töhvələr verir. Günümüzdə gənclərə yaradılan imkanlar, fürsətlər sağlam düşünən gənclərin cəmiyyətimizdə nə qədər önəmli yer tutduğunu göstərir.**

Ölkənin hər yerində olduğu kimi, rayonumuzda da gənclərin asudə vaxtlarını təşkil etmələri, mövcud imkanlardan xəbərdar olmaları, yararlanmaları, dəstək almaları üçün bu sahədə fəaliyyət göstərən təşkilatların gördüyü işlər təqdirəlayiqdir. Bərabər hüquqlar çərçivəsində yaradılan imkanlardan bütün gənclərin yararlanmalarını və faydalı şəxsiyyət, vətəndaş kimi formalaşmalarını diləyirik.

Gənclərə göstərilən diqqət və qayğının nüməsi olaraq hər il fevralın 2-si Gənclər günü kimi qeyd edilir. Bu il də Rayon İcra Hakimiyyətinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun, Gənclər evinin, Şirvan-



Salyan Regional Mədəniyyət İdarəsinin, Şirvan-Salyan Regional Təsil İdarəsinin rayon üzrə Təhsil sektorunun, GİKM-nin rayon nümayəndəliyinin birgə təşki-



latçılığı ilə rayonumuzda Gənclər Günü ilə əlaqədar bayram tədbiri keçirilib.

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların nümayəndələri, Vətən müharibəsi iştirakçıları, qazilər və rayonun aktiv gəncləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə təzə tər-çiçəklər düzərək, əziz xatirəsi ehtiramla yad ediblər.

Rayon Gənclər evində keçirilən tədbiri Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun müdiri Azad Quliyev çıxış nitqi ilə açaraq qonaqları salamlayıb və gəncləri bayram münasibəti ilə təbrik edib. Natiq dövlət gənclər siyasətinin mahiyyəti və nəticələri barədə ətraflı məlumat verib.

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov təbrik çıxışı edərək, gənclərə xoş arzularını çatdırıb.



İcra Başçısı bildirdi ki, ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə uğurlu mərhələdədir. Prezident İlham Əliyev tərəfindən qəbul edilən dövlət proqramları gənclərin dinamik inkişafı, ictimai-siyasi fəallığı istiqamətində mühüm addımlardır. Faiq Qürbətov bu yolda gəncləri daha da fəal olmağa, ölkəmizin inkişafına böyük töhfələr verməyə çağırış edib.

Daha sonra Gənclər Evinin direktoru Vəkil Cəfərov, Gənclərin İnkişaf və Karyera Mərkəzinin rayon nümayəndəliyinin direktoru İsmayıl Ağacanlı və rayonun aktiv gəncləri çıxış edərək dövlət gənclər siyasətinin gənclərə töhfələrindən danışıblar.

Tədbirdə müxtəlif sahələr üzrə fəallıq göstərmiş bir qrup gənc Fəxri Fərmanlarla təltif olunub.

Tədbir Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkil etdiyi geniş konsert proqramı ilə davam edib.

**Elnur Hüseynli**

# GÜNƏŞ ELEKTRİK STANSİYASININ TİKİNTİSİNƏ HAZIRLIQLA BAĞLI NÖVBƏTİ GÖRÜŞ



**Rayon İcra Hakimiyyətində Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin və onun tərəfdaş şirkəti olan “SOCAR Green”-in mütəxəssislərinin iştirakı ilə rayonda tikiləcək Günəş Elektrik Stansiyasının tikintisinə hazırlıq, mövcud vəziyyətin qiymətləndirilməsi və görüləcək işlərlə bağlı növbəti görüş keçirilib.**

Görüşdə Rayonu İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, başçının müavinləri, baş proqram meneceri Fernando Villanueva Baschwitz, Banka və Biləsuvar Günəş Elektrik Stansiyasının baş direkoru Yernur Jiyenbayev, “Masdar” şirkətinin nümayəndələri Amr Usama, Abdalla Əli AlMarzooqi, Murad Sadıxov,Yaşar Qocayev, Kamil Manafov, tərəfdaş şirkət olan “SOCAR Green”-in nümayəndələri İlkin Osmanov və Şamil Nuri tərəfindən tikinti işləri ilə bağlı vəziyyət yenidən müzakirə olunub, cari vəziyyət qiymətləndirilib.

Qeyd edək ki, bir müddət öncə ölkəmiz ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında aparılan danışıqların yekunu olaraq, Biləsuvarda (445 MVt) və Neftçalada (315 MVt) iki günəş elektrik stansiyasını və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşa ediləcəyi



barədə müqavilələr bağlanmışdır.

Ümumi sərmayə dəyəri təxminən 1 milyard ABŞ dolları məbləğində qiymətləndirilən stansiyaların inşası ölkələrimizin “yaşıl enerji” keçidinə birgə töhfəsi kimi dəyərləndirilir.

Məlumat üçün bildiririk ki, Azərbaycan dövləti ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında aparılan danışıqların yekunu olaraq, Biləsuvarda 445 MVt gücündə günəş elektrik stansiyasının tikintisi qərara alınıb və bu məqsədlə rayonunun inzibati ərazisində, dövlət mülkiyyətində olan 1454,0 hektar torpaq sahəsi ayrılıb.

**Pərvin Eyvazlı**

# "YENİYETMƏLƏR ARASINDA ERKƏN NİKAH VƏ QOHUMLAR ARASINDA NİKAHIN FƏSADLARI" MÖVZUSUNDA MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB




**Rayon İcra Hakimiyyətinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun və Şirvan-Salyan Regional Təhsil İdarəsinin rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə “Yeniyetmələr arasında erkən nikah və qohumlar arasında nikahın fəsadları” mövzusunda maarifləndirmə tədbiri keçirilib.**

Maarifləndirmə tədbirində çıxış edən rayonu üzrə gənclər və idman sektorunun baş məsləhətçisi Mülazim Rzayev, aparıcı məsləhətçisi Elnur Hüseynli, Rayon İcra Hakimiyyətinin yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyanın məsul katibi Məhərrəm Qurbanov rayonumuzda erkən nikah, qohum evlilikləri hallarının qarşısının alınması məqsədilə aparılan işlərdən, mütəmadi



olaraq həyata keçirilən müxtəlif tədbirlərdən bəhs etdilər, bütün aidiyyəti dövlət qurumlarının erkən nikah, qohum evlilikləri hallarına qarşı birgə fəaliyyətinin önəmini bir daha vurğuladılar. Erkən nikah, qohum evlilikləri hallarının cəmiyyət üçün yaratdığı fəsadlardan, bu cür halların gənc qızların təhsildən yayınmasına və səhhətlərinə birbaşa təsirindən söhbət açıldı, bu sahə üzrə güclü təbliğat işinin aparılması, maarifləndirmə tədbirlərinin mütəmadi olaraq keçirilməsinin vacibliyini vurğulanıb.

Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırıldı, müzakirə olunan mövzu ilə əlaqədar videofilm nümayiş etdirilmişdir. Tədbirdə rayonumuzun fəal gəncləri aktiv iştirak edib.

**Məhərrəm Qurbanov**

# MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN ANADAN OLMASININ 37-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ƏDƏBİ-BƏDİİ GECƏ KEÇİRİLİB



**Vətəni bütün qəlbinlə sevmək, onun dərdinə şərik olmaq böyük şücaətdir. Mübariz İbrahimov gənc yaşında Vətəninin dərdini özünə dərd bilmiş və bu yolda öz həyatı bahasına olsa da qarşısına qoyduğu məqsədə doğru addımlayıb nail olmuş, şəhidlik zirvəsinə yüksəlmişdir. Mübariz bu gün həyatda olmasa da hər zaman xatırlanır. Biləsuvarlı gənc nəsil onun xatirəsini əziz tutur və qəhrəmanlıq yolunu öyrənir.**

Milli Qəhrəman Mübariz İbrahimovun anadan olmasının 37-ci ildönümü münasibətilə ədəbi-bədii gecədə Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin



təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində keçirilən gecədə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Rayon Şöbəsinin rəisi Rafayıl Xəlilov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Kamil Qurbanlı, mədəniyyət işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İlk olaraq Milli Qəhrəmana həsr olunan sərgiyə baxış keçirilib. Tədbirdə çıxış edənlər Mübariz İbrahimovun keçdiyi şücaətlərlə zəngin həyat yolundan danışıb, onun Azərbaycan xalqının qəlbində bir qəhrəman kimi daim yaşayacağını qeyd ediblər. Natiqlər eyni zamanda bu günün qeyd edilməsinin əhəmiyyətindən söz açaraq gənc nəsillərə vətənpərvərliyin, fədakarlığın, igidliyin öyrədilməsin-




dəki rolundan bəhs ediblər. Bildirilib ki, bu gün ölkəmizin hər bir guşəsində Mübariz İbrahimovun adı hörmətlə anılır, onun qəhrəmanlığı haqqında kitablar yazılır, filmlər çəkilir, məktəblər, küçələr onun adını daşıyır.

Çıxışlardan sonra şəhər Orxan Əkbərov adına Uşaq İncəsənət Məktəbi, rayon Nihad Babayev adına Xırmandalı kənd Uşaq İncəsənət Məktəbi şagirdlərinin və rayon Mədəniyyət Mərkəzi solistlərinin ifasında vətənpərvərlik ruhlu şeirlər və mahnılar təqdim edilib.

İcra Hakimiyyətinin Başçısı Azərbaycanın Milli Qəhrəmanı Mübariz



İbrahimovun doğum günündə ailəsi ziyarət edib. Milli Qəhrəmanın ailəsi ilə görüşdə Başçı bildirib ki, Mübariz İbrahimov torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi şücaətlə Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya sübut etdi. Mübariz qısa ömür yaşasa da canını vətən yolunda fəda etməsi ilə özündən sonra böyük bir igidlik, mübarizlik məktəbi qoydu. Hər bir azərbaycanlı onun mübarizə dolu həyatı ilə fəxr edir.

**İlqar Dadaşov**

# MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR



**7 fevral Milli Qəhrəman, türk dünyasının qəhrəmanlıq rəmzinə çevrilmiş Mübariz Ağakərim oğlu İbrahimovun doğum günüdür. Bu münasibətlə adını daşıdığı Mübariz İbrahimov adına Təhsil Kompleksində silsilə tədbirlər keçirilmiş, qəhrəmanımızın xatirəsi yad edilmiş, Azərbaycanın erməni işğalında olan torpaqlarımızın azad olunmasında göstərdiyi igidlikdən bəhs olunmuşdur ki, bu da gənc nəslin vətənpərvərlik ruhunda böyüməsində vacib rol oynayır.**



Keçirilən tədbirlərdə rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi, Təhsil Kompleksinin marşı və vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə açıq elan edilib.




Rayon İcra Hakikiyyatinin başçısı Faiq Qürbətov, Kompleksin icraçı direktoru Aqşin Bağırov, Milli Qəhrəmanın müəllimi olmuş Kompleksin müəllimi Siyasət İsayev və hərbiçi Elvin Kərimov çıxış edərək qəhrəmanımızın keçdiyi həyat yolun-



dan, göstərdiyi igidlik və vətənpərvərlik nümunəsindən ətraflı söz açmışlar.

Daha sonra Solo rəqs, "Son məktub", xor, şeir və rəqs təqdim edilib.

Sonda Cənab Prezident İlham Əliyevin nitqi səsləndirilib.

**Taleh Cəfərov**

# "NƏBİ XƏZRİ 100" ADLI ƏDƏBİ-BƏDİİ TƏDBİR




**Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Heydər əliyev Mərkəzində Xalq şairi, Dövlət mükafatı laureatı Nəbi Xəzrinin 100 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib. Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ləman Yüzbaşova, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Kamil Qurbanlı, mədəniyyət işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Tədbirdə Nəbi Xəzrinin yaradıcılığı haqqında Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, Rayon İcra Hakimiyyətinin müavini Ləman Yüzbaşova, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Kamil Qurbanlı çıxış ediblər. ədəbi-bədii gecədə şəhər Orxan əkbərov adına Uşaq İncəsənət Məktəbi və rayon Nihad Babayev adına Xırmandalı kənd Uşaq İncəsənət Məktəbinin şagirdləri maraqlı çıxışlar ediblər. Şairin sevilən şeir-



ləri qiraət olunub, rayon Mədəniyyət Mərkəzinin solistləri tərəfindən şairin sözlərinə yazılmış mahnılar ifa olunub. Nəbi



Xəzri Azərbaycan poeziyasına öz yaradıcılığı, şeir və poeziyalar ilə geniş töhvələr verib. Onun əsərləri həm də xarici ölkələrdə böyük marağa səbəb olmuşdur. əsərləri müxtəlif ölkələrdə tərcümə olunaraq çap edilib. "İllər və sahillər" (1969), "Ulduz karvanı" (1979), "Nəsillər-əsrlər" (1985), "Ağ şimşəklər"(1986), "Torpaq sənə and içirəm" (1989), "Ömür çınarından yarpaqlar" (1995), "əsrin qanlı laləsi" (1996) və sair kitabların müəllifidir.

**Əminə Əhmədzadə**

# SÜNİ İNTELLEKT MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏLİM



**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov adına rayon Bağça-Məktəb-Lisey Kompleksində şagirdlər üçün süni intellekt mövzusunda maarifləndirici təlim keçirilib.**

Təlim, hökumətlərarası təqaüd proqramı çərçivəsində hazırda Çin Elmlər Akademiyasında tədqiqatçı kimi fəaliyyət göstərən Cəfər Həyatov tərəfindən aparılıb.

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov da iştirak edib. O, çıxış edərək süni intellektin müasir dövrdə önəmini vurğulayıb və gənclərin texnologiya sahəsində biliklərini artırmasının ölkənin gələcəyi üçün vacib olduğunu bildirib.

Təlimin əsas məqsədi gənc nəslə süni intellekt texnologiyaları, onların tətbiq sahələri və gələcək perspektivləri haqqında fundamental biliklər vermək olub. Təlimdə iştirak edən şagirdlərə süni intellektin tarixi inkişafı, onun müxtəlif sahələrdə - elm, sənaye, səhiyyə və təhsil kimi sektorlarda rolu barədə geniş məlumat təqdim edilib.

Təlim zamanı Cəfər Həyatov Çində süni intellekt sahəsində aparılan qabaqcıl araşdırmalar, texnologiyaların tətbiq olun-



duğu sahələr və Azərbaycanın bu sahədə hansı imkanlardan yararlana biləcəyi barədə ətraflı məlumat verib. O, həmçinin iştirakçılarla interaktiv müzakirələr aparıb, onların suallarını cavablandırıb və süni intellekt sahəsində gələcək karyera perspektivləri haqqında tövsiyələr verib.

Tədbirin sonunda iştirakçılar bu sahə ilə maraqlanan şagirdlər üçün gələcəkdə daha genişmiqyaslı seminar və praktiki məşğələlərin keçirilməsinin vacibliyini vurğulayıblar. Kompleks rəhbərliyi Cəfər Həyatova bu dəyərli təlim üçün təşəkkür edərək, onun elmi biliklərini paylaşmasının şagirdlər üçün böyük motivasiya mənbəyi olduğunu qeyd edib.

Bu cür tədbirlər gənclərin elmi-texnoloji biliklərini artırmaqla yanaşı, onların innovasiya sahəsində fəal iştirakını təşviq etməyə imkan yaradır.

**Ülvi Həzizadə**

## XOCALI SOYQIRIMINA HƏSR OLUNMUŞ "YARIM QALMIŞ ARZULAR" ADLI TAMAŞA NÜMAYİŞ OLUNUB



**Rayon İcra Hakimiyyətinin və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə rayon Gənclər Evində Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar "Yarım qalmış arzular" adli tamasa nümayiş olunub.**

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, hüquq-mühafizə orqanlarının,



idarə, müəssisə, təşkilatların rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi yad edilib.

Tamaşadan öncə Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov çıxış edərək Xocalı soyqırımın dünyaya tanıdılmasında mədəniyyət işçilərinin gördükləri işlərdən danışıb və Azərbaycan xalqının heç bir vaxt Xocalı faciəsini unutmayacağını bildirib.

Natiq qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Xocalı soyqırımını bütün bəşəriyyətə qarşı tarixi bir cinayət olaraq qiymətləndirib və onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib.

Dünya ölkələrinə səfərləri və beynəlxalq tədbirlərdə iştirakı zamanı Azərbaycan Prezidenti cənab İlham Əliyev faciəni dünya dövlətlərinin diqqətinə çatdıraraq bildirib ki, "Xocalı faciəsi iki yüz ildən çox müddətdə



erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir". Məhz bu qanlı faciənin davam etməməsi üçün və faciə qurbanlarının qisası üçün 27 sentyabr 2020-ci ildə başlanan 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu işğal altında qalan torpaqlarımızı azad etməklə tarixi Zəfər əldə etdi. Şanlı ordumuz bütün şəhidlərimizin, o cümlədən Xocalı faciəsi qurbanlarının qisasını aldı. Ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə canlarını Vətən uğrunda fəda edərək xalqımıza qələbə sevincini yaşadan şəhidlərimizin ruhu əbədi olaraq yaddaşlarda yaşayacaq və hər zaman minnətdarlıqla anılacaqdır.

Sonra Xocalı soyqırımına həsr olunmuş Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin hazırladığı "Yarım qalmış arzular" adlı tamaşa nümayiş olunub.

Axşam saat 17:00-da Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

**İnci Ələkbərova**

## MÜQƏDDƏS RAMAZAN AYININ BAŞLANMASI İLƏ ƏLAQƏDAR TƏDBİR KEÇİRİLİB



**11 ayın sultanı Ramazan ayı İslam dünyasının ən müqəddəs aylarından biridir. Bu ay müsəlmanlar oruc tutmaq, ibadət etmək, xeyirxah əməllər görmək və ruhən saflaşmaq üçün bir fürsət olaraq görülür. Oruc tutmaq insan sağlamlığı üçün olduqca vacib olduğu tibb elminin də vurğuladığı məqamdır. Orqanizmin təmizliyi insanın ruhunun təmizlənməsinə də vəsilə olur. Eyni zamanda bu ayda paylaşmanın, yardım etmənin, zəkat vermənin, xeyirxah əməllərin insanların həyatına müsbət təsiri böyükdür.**

Ölkənin digər bölgələrində olduğu kimi rayonumuzda da Ramazan ayının gəlişi hər il qeyd olunur.

Müqəddəs Ramazan ayının başlanması ilə əlaqədar Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov və din xadimləri iştirak edib.

İcra başçısı Faiq Qürbətov qeyd edib ki, ölkəmizdə milli mənəvi dəyərlər həmişə diqqət mərkəzində olub, mövcud olan dövlət-din münasibətləri həmişə yüksək səviyyədə inkişaf edib. Milli mənəvi dəyərlərin tərkib hissəsi olan İslami dəyərlərə xüsusilə hörmətlə yanaşılıb. Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşuğunda yerləşən Azərbaycan bütün dünyada tolerantlıq nümunəsi kimi özünü doğruldub.

Tədbirdə Ramazan ayı ilə bağlı qarşıda duran vəzifələr din xadimlərinin nəzərinə çatdırılıb.

Bildirilib ki, məzhəblərarası təfriqə və vaxt ayrı-seçkiliyi yaradan təqvimlərdən heç bir vəchlə istifadə edilməməli, din xadimləri belə halların qarşını almağa çalışmalıdırlar. Tövsiyə edilib ki, bu əziz ayda dinimizdə müqəddəs sayılan şəxslərlə



yanaşı, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi daim yad edilsin, ruhlarına dualar oxunsun, moizələrdə vətənpərvərliyin təbliğinə xüsusi diqqət yetirilsin. Ramazan bayramı dövründə keçirilən bütün tədbirlərin dinimizin və dövlətimizin qanunları çərçivəsində həyata keçirilməsinin vacibliyi din xadimlərinin diqqətinə çatdırılıb.

Görüş zamanı tədbir iştirakçılarının təklifləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

**Ziya Qurbanov**

## "XOCALI SOYQIRIMINI UNUTMADIQ, UNUTMAYACAĞIQ!" MÖVZUSUNDA ANIM TƏDBİRİ



**Rayon İcra Hakimiyyətinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun, Şirvan-Salyan Regional Təhsil İdarəsinin rayon üzrə təhsil sektorunun və Gənclər evinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımını unutmadıq, unutmayacağıq!" mövzusunda anım tədbiri keçirildi. Əvvəlcə məktəblilərin əl işlərindən ibarət "Xocalı harayı" adlı rəsm sergisi nümayiş olundu, sonra isə Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilib.**

Rayon İcra Hakimiyyəti Başçısının müavini Ləman Yüzbaşova , Rayon üzrə gənclər və idman sektorunun müdiri Azad Quliyev, rayon üzrə təhsil sektorunun müdiri Anar Xammədov və Gənclər evinin direktoru Vəkil Cəfərli tədbirdə çıxış edərək, Xocalı faciəsinin XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş faciələrindən biri olduğunu və amansızlığına, qəddarlığına görə bəşər tarixinə qanlı iz saldığını qeyd etdilər. Bildirdilər ki, 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərində genosid aktı həyata keçiriblər. Yüzlərlə günahsız insan kütləvi şəkildə məhv edilib, qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetiriliblər, girov götürülərək, insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşməli oldublar. Xocalı soyqırı-




mı zamanı 613 nəfər öldürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub, 8 ailə tamamilə məhv edilib , 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onların 150-sinin taleyi indi də məlum deyil. Ermənilər hətta erməni xisləti ilə meyitləri belə təhqir etməkdən çəkinməmişlər.

Natiqlər eyni zamanda, 44 gün davam edən və işğal altındakı ərazilərimizin, o cümlədən, Xocalının azad olunması ilə nəticələnən Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilməsindən danışdılar.

Sonda könüllü gənclərin hazırladığı "Xocalı, sən azadsan" adlı videofilm nümayiş etdirilib.

**Banuçiçək Mürsəlzadə**

## NÖVBƏTİ QANVERMƏ AKSİYASI



**Qanvermənin insan sağlamlığı üçün həm fiziki, həm də psixoloji bir çox faydası var. Qan dövranının yaxşılaşdıraraq bütün orqanların fəaliyyətini tənzimləyir. Stressin azalması və yenilənmiş orqanizmin daha gümrah hiss etməsinə xidmət edir. Eyni zamanda xəstəliklərdən əziyyət çəkən insanların həyatına əlac olmaq insanı mənəviyyatına müsbət təsir edir, psixoloji olaraq pozitivə kökləyir.**

Müxtəlif xəstəliklərdən əziyyət çəkən xəstələrin həyatlarının xilas edilməsində vacib ehtiyaclardan dolayı qanvermə tədbiri mütəmadi



hal almışdır. Rayonumuzda da belə aksiyalar həyata keçirilməsi artıq ənənəyə çevirilmişdir.

Azərbaycan Respublikası Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin dəstəyi ilə Rayon Ailə Sağlamlıq Mərkəzində növbəti "Qanvermə aksiyası" keçirilib.

Talassemiya, hemofiliyalı və digər qan xəstəliklərindən əziyyət çəkən xəstələri qan və onun komponentləri ilə təmin etmək məqsədilə keçirilən qanvermə aksiyasında Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, İcra Hakimiyyəti başçısının aparatı, rayonun idarə,



müəssisə, təşkilatlarının kollektivləri və rayon sakinləri fəal iştirak edib.

Qeyd edək ki, Mərkəzi Qan Bankının xüsusi tibb briqadasının həkim-hematoloqları Rayon Mərkəzi Xəstəxanasının tibbi personalı ilə birgə könüllü donorları müayinə etdikdən sonra onlardan qan götürülüb.

Bu humanist aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Mirhənifə Mirsultanov**

## SƏFƏRBƏRLİK VƏ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ ÜZRƏ DÖVLƏT XİDMƏTİ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI QEYD OLUNUB



**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti işçilərinin peşə bayramı ilə əlaqədar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Rayon Şöbəsinin rəisi Rəfail Xəlilov, hüquq-mühafizə orqanlarının rəhbərləri və xidmətin Rayon Şöbəsinin əməkdaşları Heydər Əliyev parkına gələrək Ulu Öndərin abidəsini ziyarət edib, əziz xatirəsinə tər çiçəklər düzdülər.**

Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov peşə bayramları münasibətilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Rayon Şöbəsinin əməkdaşlarını təbrik edərək bildirmişdir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasında əsas məqsəd əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğu prosesinə əhəmiyyətli təkan vermək, çağırış və səfərbərlik resurslarını tənzimləyən mükəmməl mexanizmin daha da təkmilləşdirməkdir. Bu dövlət qurumu gənclərin hərbi-vətənpərvərlik tərbiyəsini,



müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığını, həqiqi hərbi xidmətə çağırışını, ehtiyatda xidmətkeçməsini, səfərbərlik hazırlığı və səfərbərlik üzrə çağırışını, xüsusi hərbi ixtisaslar üzrə hazırlığını, ali təhsil müəssisələri tələbələrinin zabitlər hazırlanan xüsusi proqram üzrə hərbi hazırlığını həyata keçirir.

Başçı peşə bayramı münasibətilə kollektivi bir daha təbrik edərək onlara işlərində yeni-yeni uğurlar arzulayıb.

**Ramil Həsənzadə**

## AĞACƏKMƏ AKSİYASI



**Hər bir ağac yeni bir nəfəsdir. İnsanlar asudə vaxtlarını, istirahətlərini məhz daha çox yaşıllıq, təbiət olan yerlərə doğru seçirlər. İnsanların təbiətə çəkilməsinin səbəblərindən biri hazırki dövrdə insanların ehtiyac halına gəlməsidir.**

Təbiətə qayğı göstərildiyi qədər öz bəhrəsini verər. Yaşıllıqların, ağacların, meşələrin salınması və onların qorunma-



sı bütün dünyanın qarşısındakı öhdəlikdir. Hər bir insan təbiətin resurslarını düzgün istifadə edilməsində diqqətli olmalı, maariflənməli və ətrafındakı



insanları da buna təşviq etməlidir. Yaşıllıqların salınması qədər onları qoruyub saxlamaqda böyük məsuliyyətdir.

Rayonumuzda hər il bir neçə dəfə ağacəkmə aksiyası həyata keçirilir. Ağacların sayının çoxalması rayonumuzun yaşıllaşmasına, gözəlləşməsinə, bərəkətlənməsinə, ekologiyanın təmizlənməsinə səbəb olur. Bu da əhalimizin ümumi sağlamlığına öz təsirini göstərir.

Bu dəfə keçirilən aksiyada Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, İcra Hakimiyyəti başçısı aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və əməkdaşları iştirak edib.

"Zəfər bağında keçirilən ağacəkmə aksiyası zamanı 205 ədəd Eldar şamı, 100 ədəd melisiya, 100 ədəd iydə və 100 ədəd ağcaqayın olmaqla ümumilikdə 505 ədəd ağac əkilərək qulluq olunub.

**Fəxri Rəhimli**

# KƏND TƏSƏRRÜFATI: ÖTƏN İLİN YEKUNLARI

**2024-cü ildə kənd təsərrüfatı üzrə məhsul buraxılışının həcmi 200293,1 min manat təşkil etmişdir ki, onun da 70781,0 min manatı heyvandarlıq, 129512,1 min manatı isə bitkiçilik məhsullarının payına düşmüşdür.**

Bitkiçilik. 2024-cü ildə kənd təsərrüfatı məhsullarının istehsalı 52033,77 hektar, 2023-cü ildə isə 49514,72 hektar əkin sahəsindən toplanmışdır. 2024-cü ildə 2023-cü ilə nisbətən 5,09 faiz çox əkin sahəsindən bitkiçilik məhsulları istehsal edilmişdir. 2024-cü ildə cəmi əkin sahəsinin 310,0 hektarı və ya 0,60 faizi dövlət kənd təsərrüfatı müəssisələrinin, 11249,90 hektarı və ya 21,62 faizi qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin, 40473,87 hektarı və ya 77,78 faizi ailə kəndli və ev təsərrüfatlarının payına düşür.




2024-cü ildə məhsulu yığılmış əkin sahəsinin 33936,50 hektarı, yəni 65,22 faizi payızlıq, 18097,27 hektarı, yəni 34,78 faizi isə yazlıq bitkilərin əkin sahəsi olmuşdur.

2024-cü ilin məhsulu üçün 2023-cü ilin payızında əkilmiş 34305,80 hektar payızlıq dənlilərin hamısı dən üçün əkilmişdir (o cümlədən 10024,50 hektar buğda, 24281,30 hektar arpa). Yaz əkini qurtaranadək əkilmiş buğda sahəsinin 321,20 hektarı, arpa sahəsinin 43,70 hektarı tamamilə məhv olmuşdur. Yaz əkininin axırınadək salamat qalmış 33936,50 hektar payızlıq dənlilərin 9698,90 hektarı buğda, 24237,60 hektarı arpa əkini sahəsi olmuşdur. 2024-cü ilin məhsulu üçün payızlıq dənlilərin 22,0 hektarı və ya 0,07 faizi dövlət, 7154.9,10 hektarı və ya 21,08 faizi qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin,




26759,60 hektarı və ya 78,85 faizi ailə kəndli və ev təsərrüfatlarının payına düşür. Payızlıq buğda sahəsinin 2216,00 hektarı bərk buğdanın, 7482,90 hektarı yumşaq buğdanın əkin sahəsi olmuşdur.

2024-cü ildə 2023-cü illə müqayisədə 1507,20 hektar çox sahədə yazlıq bitkilər əkilmişdir. Yazlıq bitki növləri üzrə 2024-cü ildə 2023-cü illə müqayisədə 322,80 hektar sahədə və ya 63,70 hektar çox sahədə dən üçün qarğıdalı, 324,92 hektar sahədə və ya 310,92 hektar çox sahədə vələmir, əvvəlki ildə çəltik əkilmədiyi halda bu il 555,0 hektar sahədə çəltik, 149,40 hektar sahədə və ya 77,60 hektar az sahədə paxlalılar, 6915,78 hektar sahədə və ya 169,98 hektar çox sahədə pambıq, 445,00 hektar sahədə və ya 247,00 hektar çox sahədə şəkər çuğunduru, 129,80 hektar sahədə və ya 70,00 hektar çox sahədə dən üçün günəbaxan, 132,50 hektar sahədə və ya 0,10 hektar az sahədə kartof, 1434,50 hektar sahədə və ya 30,20 hektar çox sahədə tərəvəz, 88,40 hektar sahədə və ya 0,80 hektar çox sahədə bostan, 7597,97 hektar sahədə və ya 130,30 hektar çox sahədə çoxillik ot bitkiləri əkilmişdir.

2024-cü ildə əkin məhsulu yığılmış sahələrdən 108701,20 ton dənli və dənli paxlalılar (o cümlədən 9382,0 ton təkrar əkindən), (o cümlədən 28572,2 ton buğda, 66960,0 ton arpa, 11505,7 ton dən üçün qarğıdalı (o cümlədən 9381,0 ton təkrar əkindən), 944,4 ton vələmr, 440,4 ton paxlalılar, 183,4 ton dən üçün günəbaxan, 2013,1 ton kartof, 49859,0 ton açıq və örtülü torpaqlardan tərəvəz (o cümlədən 9316,0 ton təkrar əkinlərdən və 146,6 ton örtülü torpaqlarda olan tərəvəz əkinlərindən), 1214,1 ton ərzaq üçün bostan bitkiləri (o cümlədən 13,6 ton təkrar əkindən), 19699,5 ton şəkər çuğunduru, 24730,19 ton pambıq, 81172,2 ton yem bitkiləri (o cümlədən 2451,6 ton təkrar əkindən), 9260,6 ton meyvə və giləmeyvələr, 1465,4 ton üzüm istehsal olunmuşdur.

2024-cü ildə məhsulu yığılmış sahələrdə bir hektardan orta məhsuldarlıq dənli və dənli paxlalılar üzrə 28,1 sentner (o cümlədən buğda üzrə 29,6 sentner, arpa üzrə 27,6 sentner, dən üçün qarğıdalı üzrə 65,8 sentner, vələmir üzrə 29,1 sentner, dənli paxlalılar üzrə 29,5 sentner), dən üçün günəbaxan üzrə 21,8 sentner, kartof üzrə 151,9 sentner, tərəvəz üzrə 340,6 sentner, bostan üzrə 135,8 sentner, şəkər çuğunduru üzrə 442,7 sentner, pambıq üzrə 35,8 sentner olmuşdur.

2024-cü ildə 2023-ci ilə nisbətən bir hektardan orta məhsuldarlıq göstəricisi dənli və dənli paxlalılar üzrə 1,4 sentner az (o cümlədən buğda üzrə 2,6 sentner, arpa üzrə 0,4 sentner, qarğıdalı üzrə 5,7 sentner az, dənli paxlalılar üzrə 18,2 sentner az), kartof üzrə 0,8 sentner, bostan üzrə 0,4 sentner, pambıq üzrə 8,3 sentner, tərəvəz üzrə 65,3 sentner çox, dən üçün günəbaxan üzrə 0,3 sentner az olmuşdur.

Heyvandarlıq. 01 yanvar 2025-ci il tarixinə rayon üzrə bütün təsərrüfat kateqoriyalarında 39682 baş iribuynuzlu mal-qara, o cümlədən 19532 baş inək və camış, 141099 baş qoyun və keçi mövcud olmuşdur. 01 yanvar 2025-ci il tarixinə rayon üzrə mövcud olan iribuynuzlu mal-qaranın 38908 başı (98,0 %), o cümlədən inək və camışların 19417 başı (99,4 %), qoyun və keçilərin 136159 başı (96,5%) ailə kəndli və ev təsərrüfatlarında saxlanılır.

01 yanvar 2025-ci il tarixinə bütün təsərrüfat kateqoriyalarında 01 yanvar 2024-cü il tarixi ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 737 baş azalmış, o cümlədən inək və camışların sayı 23 baş, qoyun və keçilərin sayı 504 baş artmışdır.

2024-cü ildə bütün təsərrüfat kateqoriyalarında ət istehsalı 80678 sentner (diri çəkidə), süd istehsalı 275110 sentner, yumurta istehsalı 18710 min ədəd, yun istehsalı isə 3133 sentner olmuşdur.

**Rayon Statistika İdarəsi**

# Kənd təsərrüfatının siyahıyaalınması: AQRAR SEKTORA STATİSTİK BAXIŞ

**Kənd təsərrüfatı - ərzaq təhlükəsizliyinin təmin edilməsində, iş yerlərinin yaradılmasında, kənd yerlərinin inkişafında mühüm rol oynayan fundamental iqtisadi sahədir. İqlim dəyişikliyi, əhalinin artımı və ərzaq bazarında rəqabətin artması kimi qlobal çağırışlar fonunda kənd təsərrüfatının dəqiq, aktual və hərtərəfli təhlilinin aparılması günümüzün tələbi kimi ortaya çıxır. Bu istiqamətdə işlərin təşkili üçün ən effektiv vasitələrdən biri kənd təsərrüfatının siyahıyaalınmasının aparılmasıdır.**

> *"Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir."*
> *İLHAM ƏLİYEV*

Kənd təsərrüfatının siyahıyaalınması - ölkədə kənd təsərrüfatının bütün əsas aspektləri üzrə təfsilatı məlumat əldə etmək üçün aparılan kompleks statistik sorğudur. Bu sorğu torpaqdan istifadə vəziyyəti, əkin sahələrinin strukturu, suvarma, mal-qaranın sayı və sürü dövriyyəsi, təsərrüfatların istehsal göstəriciləri, əmək resursları və digər imkanları barədə geniş məlumat almaq fürsətini verir. Siyahıyaalmanın keçirilməsi təkcə kənd təsərrüfatı sektorunun mövcud vəziyyətini qiymətləndirməyə deyil, həm də onun güclü və zəif tərəflərini görməyə, bu sahədəki tendensiyaları müəyyən etməyə imkan verir. Bu mühüm informasiya mənbəyi dövlət tərəfindən fermerlərə dəstək üçün effektiv strategiya və proqramların işlənib hazırlanmasında, eyni zamanda aqrar sektora cəlb ediləcək investisiyaların istiqamətinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyətə malikdir.

Dünya ölkələrinin təcrübəsində kənd təsərrüfatı siyahıyaalmaları adətən on ildə bir dəfə keçirilir. Nəzərə alsaq ki, sonuncu dəfə keçirilmiş kənd təsərrüfatının siyahıyaalmasından ötən on il ərzində ölkədə kənd təsərrüfatı istehsalçılarının fəaliyyətində, sayında, strukturunda, inzibati ərazi bölgüsündə dəyişikliklər baş vermişdir, bu halda sosial-iqtisadi inkişaf sahəsində çağdaş problemlərin həllinə ünvanlanacaq tədbirlər kənd təsərrüfatı məhsulu istehsalçıları haqqında ətraflı məlumatların toplanması üçün yeni siyahıyaalmanın keçirilməsi zərurətini ortaya qoyur.

Kənd təsərrüfatı siyahıyaalmasından bəhs edərkən bu mühüm statistik tədbirin tarixinə qısa nəzər salmaq məqsədəuyğun olardı. Beləliklə, 19-cu əsrdən başlayan kənd təsərrüfatı siyahıyaalmaları 1835-ci ildə Norveçdə, 1840-cı ildə ABŞ-da, 1846-cı ildə Belçikada, 1852-ci ildə Uruqvayda, 1866-cı ildə Böyük Britaniyada, 1888-ci ildə Argentinada, 1895-ci ildə Macarıstanda, 1896-cı ildə Kanadada, 1897-ci ildə Bolqarıstanda keçirilmişdir. 1905-ci ildə Romada Beynəlxalq Kənd Təsərrüfatı İnstitutunun (IIA) yaradılmasından sonra bir çox dövlətlər bütün dünyada kənd təsərrüfatı siyahıyaalmalarının vahid əsaslarla keçirilməsi barədə razılığa gəldilər. Beləcə 1929-1930-cu illər üçün ilk ümumdünya kənd təsərrüfatı siyahıyaalmaları proqramı (WCA) hazırlandı və 60-a yaxın ölkədə tətbiq edildi. Proqramın 1940-cı il üçün nəzərdə tutulan növbəti mərhələsi İkinci Dünya müharibəsinin başlaması səbəbindən tamamlana bilmədi. 1945-ci ildə Beynəlxalq Kənd Təsərrüfatı İnstitutunun əsasında Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) yaradıldı və 1950-ci ildən başlayaraq hər on ildən bir yenilənən vahid ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramının hazırlanması təmin edildi. Hal-hazırda dünya ölkələri tərəfindən tətbiq olunan mövcud ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramının 2020-ci il raundu 10-cu proqramdır və 2016-2025-ci illəri əhatə edir.

Ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə 1921-ci ildə keçirilib. Sonrakı illərdə isə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə dair sorğu və uçotlar reallaşdırılıb. 1932-ci ildən sonra kənd təsərrüfatı sahəsində kollektivləşmə və sovxoz quruculuğu ilə əlaqədar iri təsərrüfatlar meydana gəldiyindən genişmiqyaslı kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsinə ehtiyac qalmayıb. Kolxoz və sovxozlar üzrə kənd təsərrüfatına dair müvafiq statistik məlumatlar bu təsərrüfatların təqdim etdikləri dövlət statistika hesabatlarının əsasında əldə edilib, əhalinin şəxsi yardımçı təsərrüfatları üzrə məlumatlar isə müəyyən seçmə müşahidə və uçot məlumatları əsasında toplanıb.

Müstəqil Azərbaycan Respublikasının tarixində kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə 2005-ci il iyunun 1-dən 30-dək olan dövrdə keçirilib. Həmin siyahıyaalmanın hazırlanıb keçirilməsi işi Dövlət Statistika Komitəsi və onun yerli orqanları tərəfindən yerinə yetirilib, nəticələr 8 cilddən ibarət olmaqla məcmuələr toplusu şəklində nəşr edilərək məlumat istifadəçilərinə təqdim olunub.

Aqrar sektorda həyata keçirilən islahatlar və cəlb edilən investisiyalar nəticəsində meydana çıxan yeni iqtisadi şərait kənd təsərrüfatına dair daha geniş və dolğun məlumatların əldə edilməsini zəruri edirdi. Bu məqsədlə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-ci il 28 dekabr tarixli 357 nömrəli Qərarı qəbul edildi və 2015-ci il iyunun 1-dən 30-dək olan dövrdə Azərbaycanda ikinci dəfə kənd təsərrüfatının siyahıyaalınması keçirildi. Toplanmış məlumatlar əsasında kənd təsərrüfatındakı vəziyyəti hərtərəfli qiymətləndirməyə imkan verən 15 cilddən ibarət məcmuələr nəşr edilərək istifadəçilərə təqdim olundu.

Qeyri neft-qaz sektorunun inkişafı, rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalına nail olmaq istiqamətində görülən dövlət dəstəyi tədbirləri, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi, istehsalçıların müvafiq istehsal vasitələri ilə təminatının gücləndirilməsi sonuncu kənd təsərrüfatı siyahıyaalmasından sonrakı dövrdə də davam etdirilmiş, bu sahəyə cəlb edilmiş investisiyaların həcmi artmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə birbaşa dövlət dəstəyi olaraq subsidiyaların və vergi güzəştlərinin verilməsi, kənd təsərrüfatı təyinatlı əksər maşın və texniki vasitələrin idxal rüsumundan azad olunması kimi alətlərin tətbiqi bu sahədə inkişafa öz bəhrəsini verməkdədir. Son illər ərzində dövlət dəstəyi hesabına regionlarda soyuducu anbarların, müasir taxıl elevatorlarının və digər logistika obyektlərinin qurulması, habelə yol-nəqliyyat infrastrukturunun inkişafı, meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi hesabına suvarma suyu ilə təmin olunan torpaqların əhatəsinin genişlənməsi, gübrə, pestisid ilə təminatın yaxşılaşdırılması fermerlərin bazarlardakı mövqeyini möhkəmləndirmişdir. Aqrar bölmədə həyata keçirilən islahatların informasiya təminatının zənginləşdirilməsi məqsədilə kənd təsərrüfatında baş verən proseslər haqqında aktual məlumatların əldə edilməsini təmin etmək üçün ümumdünya kənd təsərrüfatı siyahıyaalınması çərçivəsində Azərbaycanda da bu mühüm tədbirin həyata keçirilməsinə zərurət var idi.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5.1.2.9-cu bəndində 2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının növbəti siyahıyaalınmasının keçirilməsi ilə bağlı tədbir öz əksini tapır.

Bu Sərəncamın icrası olaraq "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli, 357 nömrəli Qərarı ilə ölkə üçün müstəsna əhəmiyyətə malik olan bu tədbirin 2025-ci ilin 15 iyul - 15 avqust tarixlərində keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirin mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə Nazirlər Kabinetinin sözügedən qərarı ilə Tədbirlə Planı təsdiq edilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, digər aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilmiş və İstiqamətləndirici Komitə yaradılaraq tərkibi təsdiq edilmişdir.

Siyahıyaalma kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər tərəfindən siyahıyaalma vərəqələrinin Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli komputerlərdən istifadə olunmaqla sorğu yolu ilə keçiriləcək.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının tövsiyələrini və beynəlxalq təcrübəni, siyahıyaalmanın planşet tipli kompüterlər vasitəsilə keçirilməsinin üstünlüklərini (yekun məlumatların əldə olunmasına 7-8 ay az vaxt tələb olunur, 340-dan artıq kompüter operatorunun 6 ay müddətinə, 73 nəfər siyahıyaalma qrupu rəhbərinin şəhər və rayonlar üzrə nümayəndəsinin 9 ay müddətinə işə qəbul edilməsinə, 1,2 milyon siyahıyaalma vərəqəsinin çap olunmasına ehtiyac qalmır, siyahıyaalma məlumatları birbaşa elektron daşıyıcılara daxil edildiyi üçün operatorların səhv etmə ehtimalı aradan qalxır, yekun məlumatların keyfiyyəti artır və s.), habelə ölkəmizdə İKT-nin tətbiqinin genişləndirilməsi zəruriliyini nəzərə alaraq 2025-ci ildə ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınmasının ilk dəfə olaraq planşet tipli kompüterlərdən istifadə etməklə sorğu yolu ilə (CAPI üsulu: Computer Assisted Personal Interviewing - komputer vasitəsilə şəxsi müsahibə) keçirilməsi nəzərdə tutulmuşdur.

İlkin hesablamalara görə 1,2 milyondan çox ev təsərrüfatının siyahıyaalma ilə əhatə olunacağı planlaşdırılır. Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş normativlərə uyğun olaraq kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsi məqsədilə hər 120 təsərrüfata bir nəfər sayıcı olmaqla 10 mindən çox sayıcı və hər 10 sayıcıya 1 nəfər olmaqla mindən çox təlimatçı-nəzarətçinin işə cəlb edilməsi nəzərdə tutulur. Bu zaman həm sayıcı, həm də təlimatçı-nəzarətçi üçün tapşırığın yerinə yetirilməsinə 40 təqvim günü müəyyən edilmişdir.

Siyahıyaalma üzrə işlərin uğurla təşkil edilməsi və onun həyata keçirilməsinin əsas şərtlərindən biri də kənd təsərrüfatı məhsulu istehsalçıları arasında kütləvi maarifləndirmə işlərinin vaxtında və yüksək səviyyədə təşkil olunmasıdır. Əvvəlki siyahıyaalmaların təcrübəsi və beynəlxalq tövsiyələr də göstərir ki, bu mürəkkəb və irihəcmli işin uğurla həyata keçirilməsi istehsalçıların siyahıyaalmanın məqsəd və vəzifələri, onun zəruriliyi, ölkə və əhali üçün əhəmiyyəti, bu prosesdə kənd təsərrüfatı məhsulu istehsalçılarının üzərinə düşən vəzifələr barədə vaxtında məlumatlandırılmasından, siyahıyaalmaya cəlb edilən işçilərin peşəkarlığından, habelə siyahıyaalma vərəqəsindəki suallara alınan cavabların keyfiyyətindən çox asılıdır.

2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. Tədbir rayonun öz inzibati ərazi dairəsi üzrə səkkiz yaşayış məntəqəsində ümumilikdə 1942 təsərrüfatı əhatə etmişdir.

Sınaq siyahıyaalma zamanı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının "2020-ci il Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı"nın tövsiyələri, əvvəlki siyahıyaalmaların təcrübəsi, kənd təsərrüfatının yerli xüsusiyyətləri, aidiyyəti dövlət qurumlarının, beynəlxalq ekspertin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış siyahıyaalma vərəqəsi və onun doldurulması qaydaları, CAPI (Computer Assisted Personal Interviewing - komputer vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların elektron formada daxil edilməsi üçün metodoloji əsasları və praktiki aspektləri özündə ehtiva edən xüsusi proqram təminatları təcrübi olaraq planşet tipli komputerlərdə uğurla sınaqdan çıxarıldı. Hazırlıq işləri davam etdirilir.

Ümumilikdə, 2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, cins heyvan və quşların sayı, istifadə olunan yemin növləri, akvakultura, kənd təsərrüfatı təyinatlı tikililər, işçi qüvvəsi və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaranacaqdır. Bütün bunlar müvafiq qərarların qəbul edilməsində mühüm informasiya mənbəyi kimi çıxış etməklə, bu sahədə statistik müşahidə və tədqiqatların, elmi araşdırmaların aparılmasında baza rolunu oynayacaq, eyni zamanda müvafiq statistik məlumatların beynəlxalq müqayisəliliyi təmin ediləcəkdir.

**Rayon Statistika İdarəsinin rəisi,**
**Kazım Mənsimov**

# RİH BAŞÇISININ YERLƏRDƏ VƏTƏNDAŞLARLA GÖRÜŞ-QƏBULU DAVAM EDİR



**Vətəndaşların problem və qayğılarına diqqətlə yanaşılması ölkə səviyyəsində prioritet məsələdir. Ölkə rəhbərliyinin konkret tapşırıq və tövsiyələri əsasında dövlət məmurları vətəndaşların mütəmadi olaraq müraciətlərini həyata keçirirlər.**

Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən vətəndaşların müraciətlərinə ölkə rəhbərliyinin tələblərinə uyğun olaraq yanaşılır, əhalini narahat edən problemlərin qısa müddətdə operativ qaydada həlli üçün konkret tədbirlər görülür, qaldırılan məsələlər vaxtında həyata keçirilir.



Fevral ayında RİH başçısı təsdiq olunmuş qrafika uyğun olaraq Əliabad, Bağbanlar, Çaylı və Bəydili kəndlərində də vətəndaşlarla səyyar görüş-qəbul keçirmişdir.

Səyyar qəbullarda Milli Məclisin deputatı B. Məhərrəmov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon İcra Hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri, dövlət orqanlarının yerli idarələrinin, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak edib.

RİH başçısı Faiq Qürbətov əvvəlcə ölkə Prezidenti cənab Ilham Əliyevin rəhbərliyi ilə respublikamızda və rayonumuzda görülən işlər barədə kənd sakinlərinə ətraflı məlumat verib.

Başçı bildirib ki, regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirən dövlət başçısının hərtərəfli qayğısı sayəsində davamlı olaraq bütün problemlər aradan qaldırılır və əhalinin sosial rifahına yönəlmiş tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Rayonda keçirilən istər səyyar qəbullarda, istər də fərdi şəkildə aparılan qəbullarda səsləndirilən hər bir müraciət diqqətlə araşdırılaraq qanunvericiliyə uyğun icrası təmin olunur.Vətəndaşlarımızı narahat edən ən kiçik müraciət, problem belə diqqətdən kənarda qalmır. Təbii ki, aparılan bütün bu tədbirlər əhalimizin rahatlığının təminatına, güzəranının yaxşılaşdırılmasına xidmət edir və görülən bu məqsədyönlü işlər bundan sonra da davam etdiriləcəkdir. Ötən qəbul zamanı qaldırılan məsələlərin həlli ilə bağlı görülən işlər barədə vətəndaşlara məlumat verildi.



Daha sonra sakinlərin təklifləri, istəkləri dinlənilib və onları narahat edən problemlər məsul şəxslərin iştirakı ilə araşdırılaraq həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib. Həlli vaxt tələb edən məsələlər nəzarətə götürülməklə aidiyyəti təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Başçının yerlərdə keçirdiyi səyyar görüş-qəbulları razılıqla qarşılayan sakinlər, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Hüseyin İbayev**

# ŞƏHƏR ƏRAZİSİNDƏ APARILAN ABADLIQ VƏ TƏMİZLİK İŞLƏRİ DAVAM ETDİRİLİR



**Şəhərimizin küçə və parklarında davamlı abadlıq və təmizlik işləri aparılır. Görülən işlər şəhərimizin ümumi simasının, ekoloji vəziyyətinin yaxşılaşmasına nəzərəçarpacaq dərəcədə öz təsirini göstərir. Bu da əhali tərəfindən yüksək qiymətləndirilir.**



Rayon İcra Hakimiyyətinin tapşırığına əsasən şəhər Kommunal Müəssisələr Kombinatı və "DOST" xidmətinin əməkdaşları tərəfindən K.Əbilhəsənov, Azadlıq küçələrində və bu küçələrə birləşik dalan hissələrində vətəndaşlar tərəfindən atılan müxtəlif adda yararsız məişət əşyaları, tullantılar, tikinti materialları və istifadəsiz əşyalar toplanaraq məhv edilmişdir.



Bundan əlavə qeyd olunan təşkilatların kollektivi tərəfindən dislokasiya ərazilərindən kənar C.Cabbarlı küçəsində ağacların və gül kollarının ətrafları biçilərək, budama işləri aparılmış və Bolqarçay çayının ətrafı təmizlənmişdir.

Qeyd edirik ki, aparılan təmizlik işlərinə və aparılan maarifləndirmə tədbirlərinə baxmayaraq, bu gün də bəzi sakinlərimiz tərəfindən küçələrin müxtəlif hissələrinə, hasarların önünə, yol kənarlarına tullantılar, yararsız məişət əşyaları və tikinti materialları atılır.

Vətəndaşlarımızdan xahiş edirik ki, şəhərimizin təmiz və abad qalması üçün məişət tullantılarını yalnız müvəqqəti saxlamaq üçün nəzərdə tutulmuş tullantı qutularına atsın.

**Elgün Şıxəliyev**

## RİH başçısının yerlərdə mart ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S/S | Qəbulun keçiriləcəyi inzibati ərazi dairəsinin adı | Qəbulun keçiriləcəyi yer | Qəbul günləri | | | |
|---|---|---|---|---|---|---|
| | | | 04.03.25 | 06.03.25 | 11.03.25 | 13.03.25 |
| 1 | Çinarlı kəndi | Çinarlı-Aranlı inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | + | | | |
| 2 | Yuxarı Cürəli kəndi | Yuxarı Cürəli inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | | + | | |
| 3 | Zəhmətabad kəndi | Zəhmətabad kənd tam orta məktəbi | | | + | |
| 4 | Ovçubərə kəndi | Ovçubərə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | | | | + |

**Səyyari qəbullarda iştirak etmək istəyən vətəndaşlara İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyə qabaqcadan müraciət etmələri tövsiyə olunur.**

# AĞ ÖLÜM DƏHŞƏTLƏRİ!

Narkomaniya-yunan sözü olub yuxuya dalma deməkdir. Bu gün narkomaniya bəşəriyyətin ən qorxulu və təhlükəli bəlasına çevrilib. Qorxulu ona görədir ki, bu bəlaya tutulanların geriyə-sağlamlığa qayıtması çox çətindir. Narkotik aslılıq bu maddələrdən bir neçə dəfə, hətta metamfetamin kimi süni düzəldilmiş narkotik təsirli maddələrdən istifadə etdikdən sonra yaranır. Narkomaniyaya aludəçilik insanlarda qorxu hissiyatının itməsinə, orqanizmin zəifləməsinə, bədənin arıqlamasına, gözlərin böyüməsinə, qəbizlik, fiziki, gücün düşməsinə, beyinin funksional vəziyyətinin pozulmasına, aqressivlik, yuxusuzluq, ailə və cəmiyyətdə özünün idarəetmə qabiliyyətinin pozulmasına gətirib çıxarır. Çox hallarda həmin xəstələrdə hepatit "B" və "C" virusları vena daxilinə təhlükəli şpris vasitələrindən istifadə etmə hallarında yaranır ki, bu da qaraciyərin serroz xəstəliyinə tutulmasına gətirib çıxarır. Narkomanlar infeksiya və digər yollarla qan ilə tez-tez rastlaşırlar ki, bu yolla da bütün infeksiyalara yoluxmaq olar. Narkotik maddədən bir neçə dəfə istifadə edən şəxslər həmin narkotikdən aslı vəziyyətə düşür. Həmin maddələr müxtəlif yollarla əldə edilsədə xərc tələb edir. Həmin narkotika tapılmadıqda aludəçinin bədəninə daxil olmadıqda xəstə psixoloji gərginlik keçirərək yaxın və uzaq adamlara təhlükə də törədə bilər. Xəstə gündəlik dozanı tapmaqdan ötrü hər növ ədəbsizliyə, yalançılığa, iyrənc hərəkətlərə yol verir. Ətrafda insanlar üçün diskomfort yaradır. BMT bu bəlanı bəşəriyyətin diqqətində saxlamaq üçün hər il iyunun 26-sı Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq mübarizə günü elan edib.

Ölkəmizdə də narkomaniyaya qarşı mübarizə məqsədilə Milli proqram qəbul edilmiş mətbuatda, televiziyada və ictimai sahələrdə əhalinin bu sahədə maarifləndirilməsi sahəsində ciddi işlər aparılır. Hörmətli valideyinlər ,bu bəla sibir bataqlığına oxşayır. Həmin bataqlığa düşən adamın oradan qurtulması mümkünsüzdür. Bütün yaşda olan uşaqlara xüsusilə 13-14 yaşlı yeniyetmələr diqqət mərkəzində olmalı, dərsinə necə davam etmələri öyrənilməli, dərs vaxtından sonra harda olması, dərsinə necə davam etməsi, onların simalarının necə olmasına psixi durumuna ciddi şəkildə valideyin nəzarəti olmalıdır.

Unutma ki, bir həb metamfetamin-narkotiki, sizin övladınızın bütün həyatını, gələcəyini məhv edər!

**Rayon GEM-in sanitar şöbə müdiri,**
**Sabir Abasov**

**ELAN**

**YAP Biləsuvar rayon təşkilatı tərəfindən Əliyev İlqar Qulamhüseyn oğlunun adına verilmiş 764379 saylı üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

"MƏHSUL"

Təsisçi və baş redaktor: QƏNBƏRƏLİ BAĞIROV

Ünvan: AZ 1300. Biləsuvar şəhəri, M.İbrahimov küçəsi, 213.

Telefon: 5-16-91. əlavə 108
Mob: (050) 430-55-44
E-mail: mehsul.1931@mail.ru

Qəzetdə gedən yazılara müəlliflər cavabdehdirlər.
Sifariş 389
Tiraj: 500

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış və səhifələnmiş, "Son Dakika" mətbəəsində çap olunmuşdur.